# Gəncədə Ulu Öndər Heydər Əliyevin xatirəsi ehtiramla anılıb



Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 20 il ötür. Bununla əlaqədar ölkəmizin bütün bölgələrində olduğu kimi, Gəncədə də Ulu Öndərin xatirəsi ehtiramla yad edilmişdir.

Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş konsulu Recep Öztop, millət vəkili Pərvin Kərimzadə, YAP Gəncə Şəhər Təşkilatının sədri Bayram Aslanov, eləcə də şəhərdə fəaliyyət göstərən idarə, müəssisə və təşkilat rəhbərləri, bələdiyyə sədrləri Ümummilli Lider Heydər Əliyevin şəhərin baş meydanında və Heydər Əliyev Mərkəzinin qarşısında ucaldılmış abidələrini ziyarət edərək xatirəsinə ehtiramlarını bildirmişlər.

Sonra şəhər ictimaiyyətinin nümayəndələri növbə ilə hər iki abidəni ziyarət etmiş, önünə tər qərənfillər düzmüşlər. Həmin gün şəhərin baş meydanında quraşdırılmış böyük monitorda dahi şəxsiyyətin həyat və siyasi fəaliyyətindən bəhs edən videoçarx da nümayiş etdirilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 13 dekabr, № 272.- S.3.